

*“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”.*

**Heydər Əliyev**

# XIZI


Qəzet 1990-cı ildən çıxır.
№ 1 (191) 315
4 yanvar - 3 fevral 2024-cü il

**Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti**




# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti

- Əziz həmvətənlər.

2023-cü il arxada qalır. 2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələr baş vermişdir. Ancaq o hadisələrin arasında dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır. 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam bərpa etmişdir, işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması təmin edilmişdir, düşmən ordusu məhv edilmiş, düşmənin hərbi texnikası məhv edilmiş və ya qənimət kimi götürülmüşdür. Bu tarixi hadisə münasibətilə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm.

2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi.

Üç il ərzində biz bunu sülh yolu ilə həll etmək istəyirdik. Hesab edirdik ki, Ermənistan rəhbərliyi İkinci Qarabağ müharibəsinin nəticələrini düzgün təhlil edərək özü üçün nəticə çıxaracaq. Əfsuslar olsun ki, bu, belə olmadı. Üç il ərzində Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri nəinki yerinə yetirmədi, hətta əksinə, bizə qarşı yeni hərbi təxribatlar hazırladı və onları həyata keçirdi. Qanunsuz olaraq torpağımızda məskunlaşmış 15 minlik Ermənistan ordusu Qarabağdan çıxarılmadı. Əksinə, yeni silahlar, sursatlar, hərbi texnika, minalar Qarabağa gətirildi və bizə qarşı mina terroru davam etdirildi.

Təbii ki, biz bu vəziyyətlə barışa bilməzdik. Dəfələrlə Ermənistan rəhbərliyinə və onun arxasında dayanmış Qərb ölkələrinə xəbərdarlıq etmişdik ki, bu vəziyyət davam edə bilməz. Ya separatçı rejim özünü buraxmalıdır, Ermənistan ordusu bizim ərazimizdən çıxarılmalıdır, ya da ki, biz güc tətbiq edərək dövlət suverenliyimizi özümüz bərpa edəcəyik. Əfsuslar olsun ki, bizim sözümüzə diqqət yetirilmədi. Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Separatçı rejim çökmüş, bizim qarşımızda diz çökmüş, ağ bayraq qaldırmış, təslim olmuş, torpaqlarımızdan əbədi olaraq çıxarılmış və tarixin zibilxanasına atılmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi və separatizm - bu bəla bizim torpağımızda bir daha baş qaldıra bilməz.

Azərbaycan Ordusu bir daha peşəkarlıq, qəhrəmanlıq, əsgər və zabitlərimiz fədakarlıq göstərmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Onu bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmadı. Həm Birinci, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı zamanı şəhid olmuş əsgər, zabitlərimizin, mülki şəxslərin, Xocalı qurbanlarının qisası döyüş meydanında alınmışdır.

2023-cü ilin aprel ayında isə biz ərazi bütövlüyümüzü tam bərpa etmişdik. Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhədburaxılış məntəqəsi qurulmuş və o gündən bəri Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmişdir. Azərbaycan xalqı yaxşı xatırlayır ki, dünyada, xüsusilə Qərb ölkələrində Ermənistanın arxasında dayanan, onlara daim dəstək göstərən ölkələrdə nə qədər hay-küy qaldırılmışdı, bizə qarşı əsassız ittihamlar irəli sürülmüşdü. Heç bir ittiham, heç bir təzyiq bizim iradəmizə təsir edə bilmədi. Mən o vaxt da demişdim ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, öz sərhədimizi özümüz nəzarətə götürmüşük və heç kimə imkan verməmişik ki, bizim torpağımızda at oynatsın. Bu, bizim torpağımızdır, bu torpağın sahibi bizik, nə lazım biliriksə, onu da edəcəyik, beynəlxalq hüquq çərçivəsində, o cümlədən beynəlxalq humanitar hüquq çərçivəsində. O da dərs olmadı işğalçılara, o da dərs olmadı onların arxasında dayanan anti-Azərbaycan qüvvələrə. Ona görə sentyabr ayında keçirilmiş antiterror əməliyyatı labüd idi və biz bunu keçirdik, bununla da fəxr edirik, qürur hissi keçiririk. Hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı haqlı olaraq qürur hissi keçirir.

Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq bu il 5 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır. Bu ilin mart ayında - Novruz bayramı ərəfəsində Talış kəndində bayram sevinci yaşandı, köçkünlər öz doğma evlərinə qayıtmışdılar. Avqust ayında Füzuli şəhəri və Zabux kəndi bayram içində idi. Bu il Laçın şəhərinə Müstəqillik Gününü qeyd edərkən köçkünlər qayıtmışdır - 28 May tarixində Laçında böyük bayram günü idi. Ondan əvvəl, bildiyiniz kimi, Ağalı kəndində köçkünlər məskunlaşmış və beləliklə, beş yaşayış məntəqəsində indi həyat bərpa edilib.

Onu da bildirməliyəm ki, 2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. Bu müjdəni mən bu gün onlara vermək istəyirəm və bildirmək istəyirəm ki, il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar.

Bundan başqa, bir neçə yaşayış məntəqəsi də keçmiş köçkünləri qəbul etməyə hazır olacaq. Biz - bu torpaqların sahibləri qurub-yaradanıq. Biz qurub-yaradan xalqıq. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı dağıdaraq bütün evləri, tarixi binaları, məscidlərimizi yerlə-yeksan etmiş, bizə qarşı soyqırımı, eyni zamanda, urbisid, ekosid törətmişlər. Bizim çaylarımız zəhərləndi, bizim meşələrimiz qırıldı. Bütün bunları edən Ermənistan dövləti idi. Əfsuslar olsun ki, bu cinayətlərə görə onlar bu günə qədər Qərbdə qınaq obyektinə çevrilmədi.

Bu gün Qərbdə ikili standartlar hökm sürür. Azərbaycan xalqı bunu yaxşı bilir və eyni zamanda, yaxşı bilir ki, biz bütün təzyiqlərə, bütün hədə-qorxulara, əsassız ittihamlara baxmayaraq bildiyimizi edəcəyik. Necə ki, etmişik, bundan sonra da edəcəyik. Ermənistan rəhbərliyi də bu tarixi dərslərdən nəticə çıxarmalıdır və özünü elə aparmalıdır ki, bizim qəzəbimizə tuş gəlməsin.

Biz bu il iqtisadi sahədə öz siyasətimizi uğurla aparmışıq. Müstəqil iqtisadiyyat bizə imkan verir ki, heç kimdən asılı olmayaq, heç bir beynəlxalq maliyyə institutundan asılı olmayaq və asılı deyilik.

Biz Ordumuzu böyük dərəcədə gücləndirmişik, həm peşəkarlıq artdı, yeni silahlı birləşmələr yaradıldı və bu silahlı birləşmələr digər silahlı birləşmələrlə birlikdə antiterror əməliyyatında çox böyük peşəkarlıq göstərmişlər. Yeni silahlar, hərbi texnika alındı, gətirildi, bir çox yeni kontraktlar imzalandı. Onu da bildirməliyəm ki, gələn il hərbi təyinatlı yerli istehsal böyük dərəcədə artacaq. Gələn il həm dövlət, həm özəl sektor tərəfindən hərbi təyinatlı məhsulların istehsalına ən azı bir milyard manat sərmayə qoyulacaq. Beləliklə, biz nəinki özümüzü əsas vasitələrlə təmin edəcəyik, Azərbaycan dünya miqyasında çox ciddi ölkəyə çevriləcək, bizim hərbi təyinatlı məhsulların həcmi və sayı böyük dərəcədə artacaq.

Bizim beynəlxalq nüfuzumuz gündən-günə artır. Dekabr ayında dünyanın ən böyük beynəlxalq konfransının Azərbaycanda keçirilməsi haqqında bütün dünya ölkələri yekdil qərar qəbul etmişlər - COP29 gələn il Azərbaycanda keçiriləcək. Bu, bizə dünya ictimaiyyəti tərəfindən göstərilən böyük hörmət və rəğbətdir, eyni zamanda, bizim yaşıl enerjiyə keçidimizə olan böyük qiymətdir. Yaşıl enerji keçidi bizim prioritet məsələmizdir və bu il Azərbaycanda bölgənin ən böyük bərpaolunan elektrik enerjisi stansiyası istifadəyə verilmişdir - 230 meqavat gücündə günəş elektrik stansiyası artıq bizim enerji sistemimizə tam inteqrasiya edilmişdir. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında yaxın bir neçə il ərzində Azərbaycanda 10 min meqavat bərpaolunan enerji növləri, enerji mənbələri yaradılacaq və bu sahədə də Azərbaycan dünyada liderlər sırasında olacaqdır. Əlbəttə ki, COP29 - iqlim dəyişikliyinə həsr edilmiş bu beynəlxalq konfransın Azərbaycanda keçirilməsi bir daha bu sahədə bizim uğurlarımızı əyani şəkildə göstərir.

Bu il Azərbaycanda “Heydər Əliyev İli” elan edilmişdir. Ulu Öndərin 100 illiyi bütün ölkə üzrə qeyd edildi. Mən mənim üçün bu əziz günü - atamın doğum gününü Şuşada keçirdim. Şuşanın mərkəzi meydanında Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi bildirdim və dedim ki, Ulu Öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir. Mən hesab edirəm ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndidə qaldırdığım Dövlət Bayrağımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətin əlamətidir. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətimizin əlamətidir.

Bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər. Bu gün dünya azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü tam yeni bir ovqatla qeyd edirlər. Artıq üç ildir ki, dünya azərbaycanlıları bütün Azərbaycan xalqı kimi ruh yüksəkliyi ilə yaşayır, başını dik tutub yaşayır, alnıaçıq, üzüağ yaşayırlar.

Tarixi Zəfərimiz - İkinci Qarabağ müharibəsindəki Zəfər, antiterror əməliyyatı, işğalçılardan azad olunmağımız, separatçı rejimin çökməsi bütün azərbaycanlıları haqlı olaraq bir araya, bir yumruq halına gətirir. “Dəmir yumruq” bizim Zəfər salnaməmizin rəmzi idi. Bu gün, eyni zamanda, “Dəmir yumruq” birliyimizin rəmzidir və Azərbaycan xalqını, bütün dünya azərbaycanlılarını əmin etmək istəyirəm ki, “Dəmir yumruq” hər zaman yerində olacaq.

Əziz bacılar və qardaşlar, sizə cansağlığı, uğurlar arzulayıram. Arzu edirəm ki, 2024-cü il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olsun. Bayramınız mübarək olsun!

# 1990-cı ilin 20 Yanvar hadisələrindən 34 il ötür



20 Yanvar hadisələri xalqımızın milli varlığına, milli azadlıq ruhuna qarşı yönəldilmiş təcavüz, terror aktı idi. Lakin düşmənlərimiz qürurumuzu sındıra, iradəmizi qıra, müstəqillik amallarımızı parçalaya bilmədilər.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi vəhşiliklər, tökülmüş nahaq qanlar, əliyalın insanların qətlə yetirilməsi xalq kütlələrinin nəinki mübarizə əzmini qıra bilmədi, əksinə onları birləşdirərək mübarizliyini daha da artırdı.

O müdhiş gecədən 34 il ötsə də belə 20 Yanvar faciəsi qurbanlarının xatirəsi xalqımız tərəfindən böyük ehtiramla yad edilir.

20 Yanvar faciəsinin otuz dördüncü ildönümü ilə əlaqədar Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında rayon ictimaiyyətinin nümayəndələri - RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının, idarə, təşkilat və müəssisələrin rəhbərləri və əməkdaşları, təhsil, səhiyyə və mədəniyyət işçiləri, şəhid ailələri, müharibə veteranları - yanvarın 20-də səhər saatlarından başlayaraq, Xızı şəhərindəki "Şəhidlər Xiyabanı" memorial kompleksini ziyarət etdilər.

20 Yanvar faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ziyarətçilər daha sonra abidə kompleksinin önünə tər qırmızı qərənfillər düzdülər, dualar oxudular.

*"XIZI", R.M.*
*20 yanvar 2024-cü il*

***

20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar yanvarın 20-də Xızı rayonu ərazisində saat 12.00-da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, avtomobillərdən səs siqnalları verildi, hüzn əlaməti olaraq Azərbaycanın dövlət bayraqları endirildi.

*"XIZI", R.M.*
*20 yanvar 2024-ci il*

***

Xızı Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Xızı rayonu üzrə 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə bağlı Tədbirlər Planı"na uyğun olaraq Xızı rayonunun bütün idarə, təşkilat və müəssisələrində, şəhər, kənd və qəsəbələrdə Xızı Rayon İcra Hakimiyyəti rəsmilərinin, tədbirlərə məsul şəxslərin iştirakı ilə anım mərasimləri, konfrans, toplantı və mühazirələr təşkil edilmişdir.



Mədəniyyət müəssisələrində 20 Yanvar faciəsi ilə bağlı tamaşalar göstərilmiş, bədii və sənədli filmlər nümayiş etdirilmişdir.

Tədris ocaqlarında 20 Yanvar faciəsi ilə əlaqədar xüsusi dərslər keçirilmişdir.




*"XIZI", R.M.*
*Yanvar 2024-cü il*

***

34 il bundan əvvəl baş vermiş 20 Yanvar faciəsi Azərbaycanın müstəqillik tarixinə təkcə hüznlü gün kimi deyil, eyni zamanda şərəfli gün, qəhrəmanlıq simvolu kimi daxil olub. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyasının xüsusi hazırlıqlı ordusu tərəfindən planlı şəkildə Azərbaycan xalqına qarşı törədilmiş faciə xalqın yaddaşında dərin iz qoyub.

Yanvarın 20-də Xızıda keçirilən anım mərasimində 20 Yanvar faciəsi ilə bağlı ziyarətçilərin fikirlərini öyrəndik.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov: "...O müdhiş gecədə keçmiş SSRİ-nin hərb maşınının həyata keçirdiyi qətllər insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə qara səhifə kimi yazıldı. Öz milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, günahsız insanların qətlə yetirilməsi məhvə məhkum olan sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bir daha nümayiş etdirdi."

Xızı rayon prokuroru , baş ədliyyə müşaviri Xəyalə Aslanova: "... Faciədən bir gün sonra yanvarın 21-də o zaman Moskvada yaşayan Ümummilli Liderimiz Heydər Əliyev heç bir təhlükəyə baxmayaraq, öz ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, baş vermiş faciə ilə bağlı Azərbaycan xalqına başsağlığı verdi. Keçirdiyi mətbuat konfransında başda Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən cinayət adlandırdı."

YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev: "...Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edildi. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi."

*"XIZI", R.M.*
*20 yanvar 2024-cü il*

# 20 Yanvar - milli iradəmizin zəfər çaldığı gündür

**"20 Yanvar hadisələrinin Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həm rəmzi mənası, həm də fenomenal rolu oldu. 20 Yanvar faciəsinin yaratdığı ictimai-siyasi reallıq süqutu yaxınlaşan SSRİ-də və soyuq müharibənin bitməsi ərəfəsində beynəlxalq arenada formalaşan geosiyasi situasiya fonunda, əvvəlcə Azərbaycan SSR-də, daha sonra müstəqil Azərbaycanda zəncirvari tarixi proseslərə təkan verdi."**





Bu fikirlər yanvarın 19-da Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin əməkdaşlarının, eləcə də rayonun ictimaiyyət nümayəndələrinin iştirakı ilə Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin konfrans zalında "20 Yanvar - milli iradəmizin zəfər çaldığı gün" mövzusunda keçirilmiş tədbirdə səslənmişdir.

Əvvəlcə, tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, daha sonra 20 Yanvar şəhidlərinin, eləcə də Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının işıqlı xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Giriş sözü ilə Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov çıxış edərək bildirmişdir ki, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 34 il ötür. Həmin müdhiş gecədə Azərbaycan xalqı azadlıq uğrunda mübarizə əzminin heç bir qüvvə tərəfindən qırıla bilməyəcəyini bütün dünyaya göstərdi, məğrurluğunu, yenilməzliyini nümayiş etdirdi.

44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərlə azadlıq uğrunda canlarını qurban vermiş şəhidlərimizin, o cümlədən 20 Yanvar şəhidlərinin qisasının alındığını qeyd edən A.Hüseynov şanlı Zəfərə görə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə, öz qanları ilə qəhrəmanlıq dastanları yaradan şəhidlərimizə, qazilərimizə borclu olduğumuzu vurğulamışdır.

Tədbirdə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun xüsusi bölmələri tərəfindən Bakı şəhərində və ətraf bölgələrdə müstəqil dövlət yaratmaq arzusu ilə yaşayan dinc insanlara qarşı törədilmiş misli görünməmiş qətliamın, bəşəriyyətə qarşı həyata keçirilmiş bu dəhşətli terrorun təfərrüatları və ağır nəticələrindən bəhs edilən çıxışlar dinlənilmişdir.

Sonda 1990-cı ilin qanlı 20 Yanvar hadisələrini əks etdirən videoslayd nümayiş etdirilmişdir.

*"XIZI", R.M.*
*19 yanvar 2024-cü il*

# Xızı Rayon İcra Hakimiyyətinin başçısı sakinlərlə səyyar görüş-qəbullar keçirir

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov təsdiq olunmuş qrafikə əsasən, yanvar ayında yerlərdə sakinlərlə səyyar görüş-qəbullar keçirib. Yanvarın 10-da Fındığan kəndində, yanvarın 12-də Altıağac qəsəbəsində, yanvarın 17-də Baxşılı kəndində, yanvarın 19-da Qarabulaq kəndində sakinlərlə keçirilən səyyar görüş-qəbullarda rayon rəhbəri ilə yanaşı Xızı RİHB-nın müavini Arzu Əzizov, Xızı RİHBA-nın digər məsul şəxsləri, eləcə də idarə,təşkilat və müəssisələrin rəsmiləri iştirak ediblər.

İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov vətəndaşları narahat edən problemləri dinlədikdən sonra hər bir təklif və şikayətlə bağlı müvafiq qurumların rəhbərlərinə tapşırıqlar verib. Problemlərin tezliklə aradan qaldırılması istiqamətində effektiv işlərin aparılacağı əminliklə vurğulanıb.

*"XIZI", R.M.*
*Yanvar 2024-cü il*


*Fındığan kəndi*


*Fındığan kəndi*


*Baxşılı kəndi*


*Baxşılı kəndi*


*Qarabulaq kəndi*


*Qarabulaq kəndi*

## Xızı Rayon İcra Hakimiyyəti başçısının 2024-cü ilin fevral ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| Sıra № | Rayon | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun tarixi | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Yeni Yaşma kəndi | Yeni Yaşma kənd tam orta məktəbinin binası | 02.02.2024 | 10:00 |
| 2 | | Məşədi Həsən kəndi | Məşədi Həsən bələdiyyəsinin inzibati binası | 09.02.2024 | 10:00 |
| 3 | | Türkoba kəndi | Türkoba kənd tibb məntəqəsi | 16.02.2024 | 10:00 |
| 4 | | Xələnc kəndi | Xələnc kənd ümumi orta məktəbinin binası | 21.02.2024 | 11:00 |

## Xızı Rayon İcra Hakimiyyəti başçısının 2024-cü ilin mart ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| Sıra № | Rayon | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun tarixi | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Giləzi qəsəbəsi | Giləzi qəsəbə tam orta məktəbinin binası | 01.03.2024 | 11:00 |
| 2 | | Tıxlı kəndi | Tıxlı kənd ümumi orta məktəbinin binası | 07.03.2024 | 11:00 |
| 3 | | Sitalçay kəndi | Sitalçay kənd Uşaq bağçasının binası | 13.03.2024 | 11:00 |
| 4 | | Şorabad qəsəbəsi | Şorabad qəsəbə tam orta məktəbinin binası | 15.03.2024 | 11:00 |

# 7 fevral 2024-cü il Prezident seçkiləri günüdür

# Xızı rayonunda seçicilərlə görüşlər keçirilib

2024-cü il fevralın 7-də keçiriləcək Prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində yanvarın 15-dən başlayaraq Xızı rayonunda seçicilərlə yerlərdə görüşlər keçirilib.

## Qalib xalqın qalib lideri





**Yanvarın 15-də Xızı şəhərində seçicilərlə təşkil olunmuş görüşdə YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, təşviqat qrupunun üzvləri Fərrux Haqverdiyev və Xudayət Cabbarov çıxış ediblər.**

Çıxışlarda bildirilib ki, Azərbaycanın bütün suveren ərazilərində təşkil olunması ilə tarixə düşəcək bu Prezident seçkiləri cəmiyyətimizdə haqlı olaraq Zəfər seçkisi kimi səciyyələndirilir.

Natiqlər möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin siyasi xəttinə sadiq qalaraq ölkəmizi uğurlu və işıqlı gələcəyə doğru apardığını diqqətə çatdıraraq, müasir müstəqil Azərbaycanın nailiyyətlərindən bəhs ediblər.

Təşviqat qrupunun üzvləri vətəndaşları ötən illər ərzində respublikamıza mühüm uğurlar qazandıran Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə dəvət ediblər.

Seçicilər fevralın 7-də qalib xalqın qalib liderinə səs verəcəklərini bildiriblər.

## Qalib xalqın seçimi





**Giləzi qəsəbəsində seçicilərlə görüş yanvarın 17-də keçirilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Daha sonra fevralın 7-də keçiriləcək Prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Görüşdə YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Milli Məclisin deputatı Müşfiq Məmmədli, təşviqat qrupunun üzvləri Svetlana Rüstəmova və Xanbaba Əzimov çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, Azərbaycan xalqı ötən 20 illik tarixində əsrlərə bərabər inkişaf yolu keçib, tarixi ədalətsizliyin nəticələrini aradan qaldırmaqla qalib xalq statusunu da qazanmış olub.

Son illər ərzində dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafının, bütün sosial proqramların vaxtında yerinə yetirilməsinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisi olduğunu bildirən natiqlər seçiciləri dövlətimizin dinamik inkişafını təmin edən liderə - Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyevə səs verməyə dəvət ediblər.

Seçicilər qeyd ediblər ki, qələbələrin qürurunu yaşayan xalqımızın hər bir nümayəndəsi kimi xızılıların da bir seçimi olacaq. Bu, qürurlu anları Azərbaycan vətəndaşlarına yaşatmaqda davam edən Müzəffər Ali Baş Komandan İlham Əliyevdir!

## Torpaqlarımızı kim azad edibsə, xalq onu dəstəkləyəcək






**Yanvarın 16-da Altıağac qəsəbəsində seçicilərlə keçirilən görüş Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.**

Daha sonra Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin siyasi fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş olunub.

Seçicilər qarşısında YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev və təşviqat qrupunun üzvü Ramiz Əzizov çıxış ediblər. Bildirilib ki, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının sədri, Prezident seçkilərində namizəd cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə möhtəşəm nailiyyətlərə, tarixi zəfərlərə şahidlik edib.

Bu gün ölkəmizdə bütün sahələrdə sürətli inkişafın müşahidə olunduğunu, dövlətimizin iqtisadi, siyasi və hərbi qüdrətinin gündən-günə artdığını, milli birliyimizin daha da möhkəmləndiyini vurğulayan çıxışçılar vətəndaşları ölkəni xoşbəxt gələcəyə aparan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə dəvət ediblər.

Seçicilər fevralın 7-də xalqın uğurlu gələcəyini müəyyənləşdirən liderə səs verəcəklərini bildiriblər.

## Azərbaycan dinamik inkişaf edir






**Yanvarın 18-də Sitalçay kəndində seçicilərlə keçirilən görüşdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, təşviqat qrupunun üzvləri Vəsilə Əhmədova və Pərviz Əliyev çıxış ediblər.**

Çıxışlarda Prezident İlham Əliyev tərəfindən son iyirmi il ərzində həyata keçirilən çoxşaxəli siyasətdən, əldə olunan uğurlardan danışılıb. Bildirlib ki, Azərbaycanın iqtisadi nailiyyətləri ilbəil artır və iqtisadi uğurların əldə edilməsi ilə xalqımızın rifah halının daha da yaxşılaşdırılması təmin edilir.

Natiqlər vətəndaşları respublikamızı qələbədən-qələbəyə aparan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə dəvət ediblər.

Tədbirdə dövlət başçısı cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# 7 fevral 2024-cü il Prezident seçkiləri günüdür

# Xızı rayonunda seçicilərlə görüşlər keçirilib

## Ümumxalq sevgisini qazanan qalib lider





**7 fevral 2024-cü il tarixində respublikamızda keçiriləcək Prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasından olan namizəd İlham Heydər oğlu Əliyevin seçkiqabağı kampaniyası çərçivəsində Şorabad qəsəbəsində seçicilərlə görüş keçirilib.**

Yanvarın 19-da təşkil olumuş görüşdə, əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Seçicilər qarşısında YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, təşviqat qrupunun üzvləri Fərrux Haqverdiyev, Svetlana Rüstəmova və şəhid anası Zəhra Cəfərova çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr ərzində Azərbaycan bölgədə və dünyada mövqeyini gücləndirərək söz sahibinə və əsas tərəfdaş dövlətlərdən birinə çevrilib. Həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycanın dostlarının, strateji tərəfdaşlarının və müttəfiqlərinin sayı durmadan artıb. Eyni zamanda, bu gün şanlı Azərbaycan bayrağı Qarabağın bütün ərazilərində - Şuşada, Xankəndidə, Əsgəranda, Xocalıda, Ağdərədə, Xocavənddə dalğalanır və xalqımız bunun qürurunu yaşayır.

Çıxış edənlər vətəndaşları ölkəmizin işıqlı gələcəyini təmin edən cənab İlham Əliyevə səs verməyə dəvət ediblər. Şorabadlılar da fevralın 7-də qalib xalqın qalib liderinə səs verəcəklərini bildiriblər.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

## Dövlətimizin dinamik inkişafını təmin edən lider





Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində yanvarın 23-də Yeni Yaşma kəndində seçicilərlə keçirilən görüşdə, əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Milli Məclisin deputatı Müşfiq Məmmədli, təşviqat qrupunun üzvləri Xudayat Cabbarov və Pərviz Əliyev çıxış ediblər. Natiqlər vətəndaşları ölkəmizi uğurdan-uğura aparan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar. Seçicilər fevralın 7-də qalib xalqın qalib lideri İlham Əliyevə səs verəcəklərini əminliklə bildiriblər.



Daha sonra Prezident İlham Əliyevin fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş olunub.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

## Azərbaycana Zəfər yaşadan lider





**2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək Prezident seçkiləri ilə əlaqədar namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində yanvarın 22-də Qarabulaq kəndində seçicilərlə görüş keçirilib.**

Əvvəlcə, Ulu Öndər Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. YAP Xızı rayon təşkilatının sədr müavini Ümman Rüstəmli, təşviqat qrupunun üzvləri Həcər Rəsulova və İlhamə Hüseynova seçicilər qarşısında çıxış edərək bildiriblər ki, Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanın rəşadətli ordusu 30 illik işğala son qoyub.

Çıxışlarda Prezident İlham Əliyevin bu seçkilərdə alternativi olmadığı vurğulanıb.

Qarabulaq kəndinin seçiciləri fevralın 7-də seçki məntəqəsinə gələrək, Azərbaycana uğurla rəhbərlik edən İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Hər bir azərbaycanlının Prezidenti!






**2024-cü il fevralın 7-də respublikamızda keçiriləcək Prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təşviqat kampaniyası çərçivəsində yanvarın 24-də Tıxlı kəndində seçicilərlə görüş keçirilib.**

Əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin ölməz xatirəsi böyük ehtiramla anılıb.

Tədbirdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib. Görüşdə YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, təşviqat qrupunun üzvləri İlhamə Hüseynova və Mahizər Rzayeva çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Azərbaycan 2003-2023-cü illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanıb.

Natiqlər ölkəmizin gələcək inkişafı naminə seçiciləri ən layiqli namizədə - cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər də öz növbəsində qalib xalqın qalib lideri cənab İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

# 7 fevral 2024-cü il Prezident seçkiləri günüdür

# Xızı rayonunda seçicilərlə görüşlər keçirilib

## Azərbaycanın ərazi bütövlüyünü təmin edən lider





**Fevralın 7-də respublikamızda keçiriləcək Prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində yanvarın 25-də Xələnc kəndində seçicilərlə görüş keçirilib.**



Əvvəlcə, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə YAP Xızı rayon təşkilatının məsləhətçisi Sərvaz Abbasov, təşviqat qrupunun üzvü Həbib Kərimov çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi 20 il ərzində xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, müasir, güclü ordumuz yaradılıb, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Ən əsası isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam təmin edilib. Natiqlər vətəndaşları dövlətimizi daim inkişafa aparan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə dəvət ediblər.

Seçicilər fevralın 7-də ərazi bütövlüyümüzü təmin edən lider cənab İlham Əliyevə səs verəcəklərini əminliklə bildiriblər.

## Dövlətimizi yüksəlişə aparan lider






Fevralın 7-də ölkəmizdə keçiriləcək Prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində yanvarın 26-da Fındığan kəndində seçicilərlə keçirilən görüşdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Ulu Öndər Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə çıxış edən YAP Xızı rayon təşkilatının sədr müavini Ümman Rüstəmli, təşviqat qrupunun üzvləri Bəhdaş Nəbiyev və Sərvaz Abbasov Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycanın həm döyüş meydanında, həm də siyasi arenada öz gücünü , qüdrətini bütün dünyaya göstərdiyini, regionda reallaşdırılan bütün beynəlxalq irimiqyaslı layihələrin Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirildiyini vurğulayaraq, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar.



## Xalq qalib lider İlham Əliyevə səs verəcək!



Prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində yanvarın 29-da seçicilərlə Baxşılı kəndində keçirilən görüşdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin ölməz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Milli Məclisin deputatı Müşfiq Məmmədli, təşviqat qrupunun üzvü Həbib Kərimov seçicilər qarşısında çıxış edərək, ölkəmizi daim tərəqqiyə, işıqlı gələcəyə doğru aparan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar.




## Tarixi ədalətin bərpasına nail olan rəhbər





**Ölkəmizdə keçiriləcək Prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində yanvarın 27-də Yeni Azərbaycan Partiyası Xızı rayon Qərərgahında mədəniyyət və təhsil sahəsində çalışan seçicilərlə görüşlər keçirilib.**

Əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra cənab İlham Əliyevin siyasi fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş olunub.

Görüşlərdə YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Müşfiq Məmmədli, təşviqat qrupunun üzvləri Əzət Qarayeva, Svetlana Rüstəmova və Xanbaba Əzimov çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, Prezident İlham Əliyev ata vəsiyyətini, Vətənə, dövlətə və xalqa sədaqət andını - bütün vədlərini gerçəkləşdirən böyük dövlət xadimi, qətiyyətli lider və müzəffər sərkərdədir. İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan xaos və anarxiya meydanına, geosiyasi mübarizə poliqonuna, "demokratiya laboratoriyası"na çevrilən region ölkələrindən fərqli olaraq həm öz milli qüdrətini artırdı, həm də Zəfər tarixi yazaraq yeni reallıqlar yaratdı. Bu Qələbə təkcə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası deyil, eyni zamanda, milli mənəviyyatın yenilənməsi, milli qürur və ləyaqətin bərpası, dövlətçiliyin gücləndirilməsidir.

Natiqlər seçiciləri ölkəmizi uğurdan uğura aparan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə dəvət ediblər.

Seçicilər isə fevralın 7-də qalib xalqın qalib lideri cənab İlham Əliyevə səs verəcəklərini böyük əminliklə vurğulayıblar.

# 7 fevral 2024-cü il Prezident seçkiləri günüdür

# Xızı rayonunda seçicilərlə görüşlər keçirilib

## "İnamımız sarsılmaz, mövqeyimiz dəyişməzdir!"

**Fevralın 7-də respublikamızda keçiriləcək Prezident seçkiləri ilə əlaqədarYeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində fevralın1-də Xızı rayonunda ziyalılar, ağsaqqallar, şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, idmançılarla görüş keçirilib.**






YAP Xızı rayon təşkilatının inzibati binasında təşkil edilmiş tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz ruhu bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Prezident İlham Əliyevin siyasi fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Görüşdə YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyevin, Milli Məclisin deputatı Müşfiq Məmmədlinin, təşviqat qrupunun üzvlərindən Fərrux Haqverdiyevin, Xudayət Cabbarovun, Həcər Rəsulovanın, Xanbaba Əzimovun, şəhid anası Zəhra Cəfərovanın və şəhid atası Qeyrətxan Əliyevin çıxışları dinlənilib.




Çıxışlarda qeyd olunub ki, ölkəmizdə Prezident seçkilərinin keçirilməsini şərtləndirən əsas amillərdən olan ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətinin, ordumuzun gücünün, qüdrətinin, xalqımızın Vətən, torpaq sevgisindən qaynaqlanan birliyinin, həmrəyliyinin nəticəsidir. Tarixi Zəfərimizin memarı cənab İlham Əliyevə xalqın sevgisi sonsuzdur.

Tədbirdə YAP-ın namizədi İlham Əliyevin zəngin həyat yolundan, onun Azərbaycan dövlətçiliyi üçün həyata keçirdiyi misilsiz xidmətlərdən, həmçinin, Xızıda aparılan abadlıq-quruculuq işlərindən danışılıb.

Natiqlər seçiciləri ölkəmizi uğurdan-uğura aparan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər qalib xalqın qalib liderinə səs verəcəklərini əminliklə vurğulayıblar. "İnamımız sarsılmaz, mövqeyimiz dəyişməzdir" şüarı səslənib.

## Müstəqillik, uğur və qələbə simvolu






2024-cü il fevralın 7-də keçiriləcək Prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində YAP Xızı rayon təşkilatında ilk dəfə səs verəcək seçicilərlə görüş keçirilib. Fevralın 2-də təşkil olunmuş görüşdə Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi böyük ehtiramla anılıb, Prezident İlham Əliyevin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Seçicilər qarşısında YAP Xızı təşkilatının sədri Ayaz Quliyev, Milli Məclisin deputatı Müşfiq Məmmədli, təşviqat qrupunun üzvü Həbib Kərimov çıxış ediblər. Çıxışlarda cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurlarından, ölkəmizin qarşısında yeni perspektivlərin açılmasından geniş bəhs olunub.

Seçicilər fevralın 7-də seçki məntəqələrinə gələrək Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə dəvət olunublar.

## "Zəfər seçkisində fəal iştirak edək!"

**Ölkəmizdə keçiriləcək Prezident seçkiləri ilə bağlı Xızı rayonunda fevralın 3-də seçicilərlə daha bir görüş keçirilib.**







Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində keçirilmiş görüşdə, əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin ölməz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev və təşviqat qrupunun üzvü Bəhdaş Nəbiyev çıxış edərək vətəndaşları Yeni Azərbaycan Partiyasının namizədinə - cənab İlham Əliyevə səs verməyə dəvət ediblər. Seçicilər də öz növbəsində fevralın 7-də Zəfər seçkisində fəal iştirak edərək qalib xalqın qalib liderinə - cənab İlham Əliyevə səs verəcəklərini böyük əminliklə bildiriblər.

***"XIZI", R.M.***

# Mədəniyyət xəbərləri

## Mikayıl Müşfiqin xatirəsi anılıb





**Yanvarın 6-da Xızıda XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ötən yüzilliyin 30-cu illər repressiyasının qurbanı Mikayıl Müşfiqin xatirəsi anılıb. Nakam şairin ölümünün 86 illiyinə həsr olunan "Könüllərdə əbədi tarix quran şair" adlı tədbir rayonun Sayadlar kəndində Mikayıl Müşfiqin Xatirə muzeyinin qarşısında keçirilib.**

Ölməz şairin büstü ətrafına toplaşan müşfiqsevərlər - rayon rəsmiləri, ictimaiyyət nümayəndələri, tanınmış şairlər, yazıçılar, elm, mədəniyyət və incəsənət xadimləri Mikayıl Müşfiqin həyat və yaradıcılığı haqqında danışıb, görkəmli poeziya ustasının ədəbiyyatımızda tutduğu mövqedən, lirikasının səciyyəvi cəhətlərindən söhbət açıblar.

Tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini, dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin baş məsləhətçisi Mönsün Bağırov, "Şöhrət" ordenli, əməkdar müəllim, şairə Ofelya Babayeva, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin vitse-prezidenti, əməkdar jurnalist Qafar Əsgərzadə və başqaları çıxış edərək görkəmli şairin yaradıcılığının gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və gənclərimizdə vətənpərvərlik hisslərinin tərbiyəsində əvəzsiz xəzinə olduğunu qeyd ediblər.

Tədbirdə bildirilib ki, Müşfiqin adı 1930-cu illər totalitarizminin qurbanına çevrilmiş məsum insanların xatirəsinin rəmzi və nakam şair obrazı kimi xalqın yaddaşında yaşamaqdadır. Adını Azərbaycan poeziyası tarixinə qızıl hərflərlə yazdırmağı bacaran Müşfiqin şeirləri yaşlı nəsillərlə bərabər, gənclərin də dillər əzbəridir. Müşfiqin "Yenə o bağ olaydı", "Oxu, tar" və bir sıra başqa şeirləri poeziya xəzinəsinin inciləri sırasındadır.

Qeyd olunub ki, Sovet imperiyasının repressiya dalğasına tuş gələn Mikayıl Müşfiq 1938-ci il yanvarın 6-da güllələnib. Nakam şair Azərbaycan xalqı üçün əsl sənət xəzinəsini yadigar qoyub, eyni zamanda, böyük bir xəzinənin açarını da özü ilə əbədiyyətə aparıb.

Çıxış edən natiqlər bildiriblər ki, Mikayıl Müşfiq milli folklordan və klassik ədəbi ənənələrdən layiqincə bəhrələnməklə dərin lirizmə malik və doğma dilin bütün gözəlliklərini özündə ehtiva edən bənzərsiz poetik nümunələr yaratmışdır. Bu nümunələr Azərbaycanın çoxəsrlik bədii fikir xəzinəsini daha da zənginləşdirib.

***"XIZI", R.M.***
***06 yanvar 2024-cü il***

*Məhəmməd Əmin Rəsulzadə -140*

## İnsanlara hürriyət, millətlərə istiqlal!




**"Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir."**



Bu fikirlər yanvarın 31-də Cəfər Cabbarlı adına Xızı rayon Mədəniyyət Mərkəzində Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinə tabe mədəniyyət müəssisələrinin və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Xızı rayon Komitəsinin birgə təşkilatçılığı ilə görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi ilə əlaqədar olaraq keçirilmiş "İnsanlara hürriyət, millətlərə istiqlal" adlı tədbirdə səslənmişdir.

Çıxış edənlər Məhəmməd Əmin Rəsulzadənin həyat və yaradıcılığından, siyasi fəaliyyətindən geniş bəhs ediblər. Qeyd olunub ki, onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrli yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. O, uzun illər ərzində mühacirətdə də müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır.

Sonda Məhəmməd Əmin Rəsulzadənin həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

***"XIZI", R.M.***
***31 yanvar 2024-cü il***

## "20 Yanvar - tariximizin qanlı və şanlı səhifəsi" mövzusunda tədbir keçirilib





**Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinə tabe müəssisələrin birgə təşkilatçılığı ilə 20 Yanvar hadisələrinin 34-cü ildönümü ilə əlaqədar "20 Yanvar - tariximizin qanlı və şanlı səhifəsi" adlı tədbir keçirilmişdir. Yanvarın 19-da Cəfər Cabbarlı adına Xızı rayon Mədəniyyət Mərkəzində təşkil edilmiş tədbirdə, əvvəlcə 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.**

Daha sonra mövzu ətrafında çıxışlar olmuşdur. Çıxış edənlər 20 Yanvar hadisələrinin müstəqillik tariximizdə oynadığı mühüm roldan bəhs etmişlər. Bildirilmişdir ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş verən hadisələr Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilməyib, vətənsevər, azadlıq ruhlu igid oğul və qızlarımız şəhidlik zirvəsinə yüksələrək, millətimizin yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini bütün bütün dünyaya, ən əsası isə faciənin təşkilatçılarına nümayiş etdiriblər.

Vurgulanmışdır ki, 20 Yanvar faciəsinin ildönümü tarixdə ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyünün və suveren hüquqlarının tam bərpası şəraitində qeyd edilir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun Qarabağda qazandığı hərbi Zəfər xalqımızın 34 il bundan əvvəl göstərdiyi ümumxalq birliyinin yeni bir təcəssümüdür.

Sonda ədəbi-bədii kompozisiyalar nümayiş olunmuşdur.

***"XIZI", R.M.***
***19 yanvar 2024-cü il***

## "Azərbaycan gəncliyi" adlı tədbir keçirilib



Abşeron -Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinə tabeli müəssisələrin və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının (MİHİ) Xızı rayon Komitəsinin birgə təşkilatçılığı ilə 2 Fevral - Gənclər Gününə həsr edilmiş "Azərbaycan Gəncliyi" adlı tədbir keçirilib. Fevralın 2-də C.Cabbarlı adına Xızı rayon Mədəniyyət Mərkəzində təşkil edilmiş tədbirdə mədəniyyət müəssisələrinin rəhbərləri, gənc əməkdaşlar iştirak ediblər. Tədbirə Vətən müharibəsi qazisi Kamran Baxşizadə də dəvət olunub.

Tədbirdə Abşeron-Xızı RMİ Xızı rayon üzrə nümayəndəliyinin baş məsləhətçisi Mönsün Bağırovun, MİHİ Xızı rayon Komitəsinin sədri Leyla Bağırovanın, Xızı rayon Mərkəzi Kitabxana Sisteminin (MKS) direktoru Ayşən Əliyevanın və tədbirin qonağı Vətən müharibəsi qazisi Kamran Baxşizadənin mövzu ətrafında çıxışları dinlənilib.

Natiqlər öz çıxışlarında 2 Fevral - Gənclər Gününün mahiyyəti və əhəmiyyətindən, cəmiyyətin inkişafında, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında, o cümlədən 44 günlük Vətən müharibəsində tarixi Zəfərin qazanılmasında gənclərin müstəsna rolundan, gənclərə göstərilən dövlət qayğısından danışıblar.

Daha sonra mədəniyyət müəssisələrinin gənc əməkdaşları Abşeron-Xızı RMİ Xızı rayon üzrə nümayəndəliyi tərəfindən "Fəxri Fərman"larla təltif olunublar.

Tədbirin sonunda gənclər üçün MİHİ Xızı rayon Komitəsi tərəfindən çay süfrəsi təşkil olunub.

***"XIZI", R.M.***
***2 fevral 2024-cü il***


Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89;
(050) 547-65-39;
(070) 831-95-96
*Whatsapp:* (050) 965-88-89;
(070) 831-95-96
*Elektron ünvan: xizi.r.m@mail.ru*






*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.*
*VÖEN: 7800023401*
*H/h: 33080019442400230124*

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

*Tiraj: 600*
*Sifariş: 702*
*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*